student. The relationship between teacher and student refers to the ability of a teacher to work with his students during the lesson. Collaboration can help a teacher win the love of his students. Pedagogical and psychological knowledge is of utmost importance for enhancing the spiritual enrichment of each teacher. The teacher must observe pedagogical ethics when communicating with students, demonstrate spiritual values and protect their social authority.

***Key words:*** *modern education system, cooperation pedagogy, new pedagogical thinking, teacher-student relationships.*



Təhsil sistemində baş verən kiçik bir dəyişiklik ölkənin milyonlarla vətəndaşının həyat və maraqlarına təsir edir. Bu, həm də insan təfəkkürünün yeniliklərə uyğunlaşmasını, köhnə stereotiplərin və çətinliklərin öhdəsindən gəlməyi tələb edir.Təhsil sahəsində islahat bütün cəmiyyəti əhatə edir, çünki, hər bir ailədə məktəbəqədər təlim və tərbiyədən başlayaraq doktorantura pilləsinə qədər təhsil alanlar var. Təhsil bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunudur. Bu fəaliyyətin tərkib hissələrindən biri kimi komanda şəklində işləyərkən əməkdaşlıq etmək, bir-birini dinləməyi bacarmaq, məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı üçün vacib olan XXI əsr kompetensiyalarını dərk etmək və bunları şagirdlərə aşılamaq müəllimlərin üzərinə düşür.

Haqqında söhbət açacağımız əməkdaşlıq pedaqogikası da birbaşa müəllim-şagird münasibətlərinə əsaslanır. Müəllim-şagird münasibətləri dedikdə, birgə fəaliyyət prosesində müəllimin şagirdlərə məhəbbət dolu qəlb bəxş etməsi, əvəzində şagirdlərin məhəbbətini qazana bilməsi başa düşülür. Pedaqoji ədəbiyyatda əməkdaşlıq, təlimə maraq yaradılmasının aşağıdakı yolları göstərilir:

- Şagirdlə əməkdaşlıq edərkən onun hüquqlarının qorunması, nüfuzunun toxunulmazlığına riayət olunmalıdır.
- Fərdi yanaşma prinsipinə görə, şagirdə gücünə, qavrama qabiliyyətinə uyğun tapşırıq verilir.
- Dərslərdə yeni təlim metodlarından istifadə olunur, müəllim şagirdləri maraqlandırmaqla fəal işə qoşmağa, eyni zamanda yormamağa çalışır.
- Sinifdənxaric və məkəbdənkənar tədbirlərin maraqlı və səmərəli təşkilinə diqqət yetirilir.

Belə olduqda şagirdlər verilmiş tapşırıqları həvəslə yerinə yetirirlər.Onlarla əməkdaşlıq təlimə marağı daha da artırır. Həm pedaqoji ədəbiyyatda, həm də məktəb təcürbəsində müəllim-şagird münasibətlərinin aşağıdakı iki forması mövcuddur: *avtokratik* əməkdaşlıq, *demokratik* əməkdaşlıq.

*Avto* latın dilində *mən, özüm, kratos – hakimiyyət* deməkdir. *Avtokratik əməkdaşlıq* şagirdə əmrlə, hökmlə yanaşmaq deməkdir. Yanaşmanın bu növündə müəllim şagirdlə razılaşmır, hətta bəzən onunla kobud rəftar edir. *Demokratik əməklaşdıq* dedikdə isə müəllimin şagirdlərlə işgüzar münasibətdə olması, onların arzu və maraqlarını, pedaqoji–psixoloji xüsusiyyətlərini nəzərə alması başa düşülür. Demokratik əsaslarda qurulmuş müəllim–şagird əməkdaşlığı hər cür inzibatçılığı, amirliyi, bürokratçılığı, idarəçiliyi rədd edir, xoşməramlı münasibət və ünsiyyət yaradır. Avtoritar və demokratik əməkdaşlığı müqayisəli şəkildə aşağıdakı kimi vermək olar:

*Avtoritar əməkdaşlıq*: hökmlü, kəskin səs, əmrlər vermək, gücdən istifadə etmək, təzyiq göstərmək, tapşırığı zorla qəbul etdirmək, tənqid etmək, cəzalandırmaq, tabe etmək, cavabdehlik və məsuliyyəti şagirdin üzərinə qoymaq.

*Demokratik əməkdaşlıq*: humanist rəhbərlik, mülayim səs, xahiş və ya müraciət etmək, sözün təsirindən istifadə etmək, fikri təklif şəklində irəli sürmək, razılaşma yolu ilə əməkdaşlıq, köməyə üstünlük vermək, rəğbətləndirmək, münasibət bildirmək, məsləhət görmək, cavabdehlik və məsuliyyəti şagirdlə bölüşmək.

Müasir təhsil sistemi avtoritar əməkdaşlığın əleyhinədir, çünki belə əməkdaşlıq şagirdə neqativ yanaşmadır. Belə əməkdaşlıq şagirdlərə təlim-tərbiyənin təsirini və təlimə marağı azaldır.

Müəllimin pedaqoji mərifəti də müəllim-şagird münasibətində üstünlük təşkil edən amildir, çünki pedaqoji mərifət müəllimin şagirdlə ünsiyyəti ilə bağlıdır.

Müəllimin şagirdlə ünsiyyəti aşağıdakı formalarda ola bilər: dəyişməz ünsiyyət; dəyişən ünsiyyət; qeyri-fəal ünsiyyət; birgə həvəs və yaradıcı ünsiyyət; dostluğa əsaslanan, mehriban ünsiyyət; müəyyən pərdə saxlamaqla ünsiyyət; rişxəndli ünsiyyət; hökmlü ünsiyyət və s.

Qeyd olunan ünsiyyət formalarından birgə həvəs və yaradıcı ünsiyyətə, dostluğa əsaslanan, mehriban ünsiyyətə üstünlük verən müəllim şagirdlərdə təlimə marağı artırır, müəllim-şagird münasibətlərinin qorunub-saxlanmasına səbəb olur.

Təlim zamanı müəllimin istifadə etdiyi yeni təlim metodlarının düzgün seçilməsinin müəllim-şagird münasibətlərinin yaxşılaşmasına təsiri vardır. Şagirdlərdə təlimə maraq yaratmaq üçün əqli hücum, rollu oyunlar, söz assosiasiyası və s. yeni təlim metodlarına üstünlük verilməlidir.

Müasir dövrdə məktəbin başlıca vəzifəsi yeni, sosial şəxsiyyət tərbiyə etməkdir. Pedaqoji proses müəllimin rəhbərliyi ilə, xüsusi vasitə və metodlarla şagirdin inkişafına xidmət edir. Eyni zamanda, müəllim özü də inkişaf edir. Bu proses, yalnız, o vaxt səmərəli olur ki, müəllim öz fəaliyyətini düzgün tənzimləsin, müasir dövrün tələblərini nəzərə alsın.

Yaşadığımız dövr həyatımızın siyasi, iqtisadi, ictimai və mənəviyyat sahələrində əsaslı islahatlarla müşayiət olunur. Demokratik və dünyəvi təhsil sisteminin yaradılması istiqamətində həyata keçirilən məqsədyönlü dəyişikliklərlə ümumbəşəri, milli dəyərlərdən qaynaqlanaraq təhsil sistemimizin yeni modelini formalaşdırmağa, mütərəqqi dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaradır.

Milli təhsilimizin əsas istiqamətlərindən biri kimi dəyərləndirilən humanistləşdirmə adi şüarçılıq təzahürlərindən uzaq olmaqla, gənc nəslin insani hisslərinin oyadılması, tərbiyə edilməsi, onlarda vətəndaş yetkinliyinin formalaşdırılmasına yönəldilmiş strateji məqsəddir.

Pedaqoji prosesdə şagirdin bərabərhüquqlu subyekt və tərəfdaş kimi qəbul edilməsi ənənəvi pedaqoji sistem üçün səciyyəvi deyil idi. Bu gün şagird şəxsiyyətinə təzyiqdən, zorakı təsir vasitələrindən əl çəkmək tələb olunur. Müəllim özü şəxsiyyət kimi yüksələ bilmirsə, humanist keyfiyyətlərin daşıyıcısı, xeyirxah ruhun sahibi deyilsə, şagirdlərdə bu keyfiyyətləri formalaşdıra bilməz.

Müəllimlərin bir qismi, xüsusilə, gənc müəllimlər ciddi bir problemlə – ünsiyyət problemi ilə qarşılaşırlar.Belə müəllimlər şagirdlərin təlim materiallarını daha maraqla qarşılamaları və daha yaxşı mənimsəmələri üçün onlarla necə rəftar etmək lazım gəldiyini öyrənməyə çalışırlar. Danılmaz həqiqətdir ki, məktəbdə təlim-tərbiyə prosesinin əsas təşkilatçısı müəllimdir. Məktəblilərin ümumtəhsil hazırlığı, onlarda müstəqil, yaradıcı təfəkkürün inkişafı təlim materialı və dərsliklə yanaşı, həm də müəllimin səriştəlilik səviyyəsindən, pedaqoji qabiliyyətindən, insani keyfiyyətlərindən, şagirdlərlə yarada biləcəyi ünsiyyətdən asılıdır.

Hər bir müəllimin fəaliyyətində, mənəvi zənginliyinin artırılmasında pedaqoji və psixoloji biliklər müstəsna əhəmiyyət kəsb edir. Müəllim şagirdlərlə ünsiyyətdə olarkən pedaqoji etikanı gözləməli, mənəvi zənginliyini nümayiş etdirməli, ictimai nüfuzunun qorunmasına nail olmalıdır.

Təcrübə göstərir ki, müəllim şagirdlərin hüquqlarını gözlədikdə, onlara qayğıkeş münasibət bəslədikdə çox sevilir və xoş xatirələrlə anılır.

Son illərə qədər müəllimlərin böyük əksəriyyəti dərsdə öz vəzifələrini, əsasən, şagirdlərin evdə öyrəndiklərini soruşmaqla, onların bilik və bacarıqlarını qiymətləndirməklə, bəzən keçmiş dərslə yeni dərs arasındakı əlaqə yaratmaqla, yeni dərsi izah etməklə və ev tapşırıqlarını verməklə bitmiş hesab edirdilər. Onlar hesab edirdilər ki, dərsin əsas funksiyası yalnız proqram materialını öyrətməkdən ibarətdir. Unudurdular ki, dərsdə yalnız şagirdləri öyrətməklə öz işini bitirmiş hesab etməyib, həm tərbiyə etməli, inkişafetdirici funksiyaları da həyata keçirməlidirlər.

Təhsil islahatının tələbləri baxımından son vaxtlar görünür ki, yeni təlim texnologiyalarının, müəllim-şagird münasibətlərinin formalaşdırılması,yeni, interaktiv təlim metodlarının tətbiqi sayəsində müsbət nəticələr qazanılmışdır.

İndi məktəb, o cümlədən, müəllim: "Gənc nəslə nəyi öyrətməliyik?Necə tərbiyə etməliyik? Onlarda hansı keyfiyyətləri formalaşdırmalıyıq? Bunlara hansı yollarla, hansı metodlarla nail olmalıyıq?" suallarına cavab axtarmalıdır. Bunun üçün əvvəlcə məqsəd aydınlığı olmalıdır. Təhsil sahəsinin özünəməxsusluğu ondadır ki, nəticə əldə etmək üçün illərlə vaxt lazımdır.Ona görə də təlim-tərbiyənin məqsədinə, məzmununa, metodlarına, təşkili formalarına, müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətinin təşkilinə innovasiyalar tətbiq olunmalıdır. Bununla yanaşı, dərsin tərbiyəedici, inkişafetdirici funksiyalarının həyata keçirilməsi üçün müəllim geniş biliyə, mədəniyyətə malik olmalı, onun elmi-metodiki, psixoloji hazırlığı yüksək səviyyədə olmalı, yenilikləri, yeni iş metodlarını öyrənməli, treninqlərdə iştirak etməli və öyrəndiklərini öz işində tətbiq etməlidir.

Görkəmli Amerika pedaqoqu Fillip Şlexti məktəb rəhbərlərinə verdiyi "Siz məktəbdən nə istəyirsiniz?" sualına "Bizə elə insanlar lazımdır ki, onlar müstəqil, sərbəst öyrənməyi bacarsınlar" cavabını almışdır. Müasir təhsil sisteminin tələbinə uyğun olaraq, əgər şagird müstəqil öyrənməyi, qarşısına qoyduğu məqsədə çatmaq üçün yollar aramağı və tapmağı, hər hansı problemi həll etməyi, problemin həlli üçün müxtəlif informasiya mənbələrindən, texnologiyalardan istifadə etməyi bacarırsa, onun intellektual, həyati bacarıqlarını, gələcək həyata hazırlıq səviyyəsini yüksəltmək də asan olacaqdır.

Təhsilin keyfiyyəti, təhsilalanların kompetensiyaları dünyada qlobal problemlərdən biri hesab olunur. Biz bu gün gələcəyin şəxsiyyətini hazırlamalıyıq. Müasir dövrdə şəxsiyyətin maraq, ehtiyac, arzu və istəklərini əsas götürməklə təhsilalanların mənafeyinə xidmət göstərmək ön plana çəkilir. Bu baxımdan YUNESKO XXI əsri "Təhsil əsri", "İntellekt əsri" elan etmişdir. Bu, müəllimlərdən pedaqoji prosesdə daha səmərəli təlim metodlarından istifadə olunmasını, şagirdi pedaqoji prosesin əsas subyekti kimi qiymətləndirməyi tələb edir. Bütün bunları əldə etmək üçün şagird-müəllim fəaliyyətinin əsasında əməkdaşlıq pedaqogikası, pedaqoji prosesin təşkilində humanistlik və demokratiklik prinsipləri əsas götürülməlidir.

**Məqalənin elmi yeniliyi**. Məqalədə birbaşa müəllim-şagird münasibətlərinə əsaslanan əməkdaşlıq pedaqogikasından söhbət gedir.Ənənəvi təhsil sisteminə xas olan avtokratik əməkdaşlıqdan uzaqlaşıb, subyekt-subyekt münasibətlərinə əsaslanan demokratik əməkdaşlığa keçməkdən, bu əməkdaşlıq növünün üstünlüklərindən danışılır.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalədə qeyd olunur ki, demokratik əsaslarda qurulmuş müəllim–şagird əməkdaşlığı hər cür inzibatçılığı, amirliyi, bürokratçılığı, idarəçiliyi rədd edir, xoşməramlı münasibət və ünsiyyət yaradır. Bu isə təlim-tərbiyə prosesində daha səmərəli nəticələrin alınmasına birbaşa təsir göstərir.

**Ədəbiyyat**

1. Şükürov Q. Əməkdaşlıq pedaqogikası və şagirdlərin təlim marağının artırılması . Bakı, "İbtidai məktəb və məktəbəqədər tərbiyə". 2005, №1, səh. 11-15.
2. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti (I–IV siniflər). Bakı, 2006.
3. Əliyeva A. Müəllim-şagird münasibətləri və yeni pedaqoji təfəkkür. "Azərbaycan müəllimi" qəzeti , 2000, 20-26 aprel.
4. Bağırova S. Müəllim-şagird münasibətlərinin təlimin keyfiyyətinə təsiri. "İbtidai məktəb və məktəbəqədər tərbiyə". Bakı, 2002, №1, səh. 31-37.

**Rəyçi: Rzayeva Y.T., p.ü f.d.**
**E–mail: aişam.52@mail.ru**
**Redaksiyaya daxil olub: 08.07.2019**